

# Ədaləti bərpa edən müharibə

***Vətən müharibəsinin başlanmasından bir il keçir. II Qarabağ müharibəsi Azərbaycanın şanlı qələbəsi kimi dünya hərb tarixinə həkk olundu. Yəqin ki, hər birimiz müharibənin başlandığı 27 sentyabr 2020-ci ili yaxşı xatırlayırıq. Xislətinə yaxşı bələd olduğumuz ermənilər həmin tarixdə növbəti dəfə atəşkəsi pozaraq mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atəşə tutur, öz xain planlarını həyata keçirirdilər. Lakin, baş verənlər onu göstərdi ki, istər Ali Baş Komandan, istərsə də silahlı qüvvələrimiz düşmənin bu təxribatına cavab vermək üçün hazır idi. Ümumiyyətlə, müharibədə qazanılan zəfərdən danışarkən, məhz bu hazırlıq mərhələsindən bəhs etmək yerinə düşər.***

Bu fikirləri bizimlə söhbətində 2 saylı ASAN Kommunal mərkəzinin baş məsləhətçisi Samir Nuriyev bildirdi. O dedi:

– Azərbaycan xalqı 30 ilə yaxın bir müddət ərzində müharibə şəraitində, torpaqlarının həsrətində yaşayıb. Xalqımızın və dövlətimizin sülh tərəfdarı olmasına baxmayaraq, zaman keçdikcə anlayırdıq ki, müharibə qaçılmazdır. Artıq siyasi lüğətlərdən çıxarılmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təsis edilən ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyəti, BMT qətnamələrinin həqiqətdə heç bir əhəmiyyət kəsb etməməsi, erməni tərəfinin törətdiyi təxribatlar, müxtəlif illərdə Ermənistanda iqtidarda olan insanların riyakar və saxta siyasəti bizi gündən-günə müharibəyə yaxınlaşdırırdı. Əlbəttə, danışıqlar da davam edirdi. Biz sona qədər çalışırdıq ki, məsələ sülh yolu ilə həll olunsun. Beynəlxalq vasitəçilər bizi inandırırdı ki, məsələ sülh yolu ilə həll edilə bilər. Ancaq, müharibədən əvvəlki bir il onu göstərdi ki, onlar sadəcə vaxt qazanmaq üçün bizi aldatmağa çalışırlar. Danışıqlar prosesi demək olar ki, iflic vəziyyətində idi. Bunun başlıca səbəbi Ermənistanın yeni hakimiyyətinin qəbuledilməz fəaliyyəti, yeni ərazi iddiaları oldu. Onlar gizlətmədən, nümayişkaranə şəkildə həm bizə, həm də dünya ictimaiyyətinə göstərirdilər ki, işğal edilmiş torpaqlarda əbədi qalacaqlar. Hətta, müxtəlif xəritələr dərc edir, burada qondarma "Dağlıq Qarabağ Respublikası"nın sərhədlərini müəyyənləşdirirdilər. Bu sərhədlər içərisinə bütün işğal altında olan Azərbaycan torpaqları daxil edilmişdi. Onların adı dəyişdirilmiş, eybəcər adlar qoyulmuşdu.

Qeyd etdiyimiz kimi, ölkəmizdə təbii olaraq müharibəyə hazırlıq prosesi gedirdi. Burada bir haşiyə çıxaraq bildirim ki, qələbəni şərtləndirən əsas amillərdən biri də, əldə etdiyimiz iqtisadi müstəqillik idi. Dövlət başçısı bu faktı öz çıxışlarında dəfələrlə dilə gətirib.

Müharibənin başlanmasından qısa müddət sonra düşmən başa düşdü ki, Azərbaycan Ordusunun qabağında dura bilməyəcək. Ona görə də, beynəlxalq ictimaiyyətə daha aktiv şəkildə müraciətlər etməyə başladılar. Onlar müxtəlif yollarla müharibəni dayandırmağa, vaxt qazanmağa çalışırdılar. Prezident İlham Əliyev isə çıxışları zamanı qətiyyətlə qeyd edirdi ki, bizi heç kim dayandıra bilməz.

Belə də oldu. Vətən müharibəsində qazanılan zəfərlə dünyaya gücümüzü göstərdik. Biz sübut etdik ki, Azərbaycan xalqı mərd xalqdır və biz heç vaxt işğalla barışmamışıq. Bütün dünya bizim hansı texniki imkanlardan istifadə etdiyimizin şahidi oldu. Xüsusilə qeyd etmək istərdim ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, həm də operativ addımlar, əməliyyatların hazırlanması baxımından bütün dünyada öyrənilir.

Qələbədən sonra əsas diqqət, sərhədlərin möhkəmləndirilməsinə, ərazilərin mina təhlükəsizliyinin təmin edilməsinə və bu torpaqlarda həyatın təmin edilməsinə yönəlib. Bildiyimiz kimi, bərpa-quruculuq işləri sürətlə davam etdirilir. İnsanların tezliklə öz doğma torpaqlarına qayıda bilməsi üçün intensiv işlər görülür. Ümid edirik ki, tezliklə bu işlər tamamlanacaq və həmin torpaqlarda həyat bərpa olunacaq.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***



Xalq qəzeti 2021.- 1 oktyabr.- S.3.